

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 203 (23.845)

2 noyabr 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 1-də İsmayıllı rayonunda səfərdə olublar. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın ümummilli lideri Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar, sonra Lahıc qəsəbəsində sakinlərlə söhbət ediblər. Səfər zamanı Lahıcdakı Bədöyün məscidində aparılan bərpa-təmir işləri ilə tanışlıq olub. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunda Uşaq və Ailələrə Dəstək Mərkəzinin və İsmayıllı şəhər Natiq Behdiyev adına 6 saylı tam orta məktəbin yeni binalarının açılışlarında iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 1-də Şamaxı rayonunda səfərdə olublar.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 30 oktyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı sahəsində çalışanlar da vardır:

**İmanova Səhər İman qızı**

**Novruzov İlqar Əsgər oğlu**

3-cü dərəcəli "Əmək" ordeni ilə,

**İsayev Niyamət İsa oğlu**

**Quliyev Yaşar Hacı oğlu**

**Rüstəmov Bəybala Nəriman oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## İnnovativ dərnəklərin fəaliyyəti ilə bağlı yığıncaq olub



***Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində innovativ dərnəklərin fəaliyyəti ilə bağlı yığıncaq keçirilib.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov təhsilə göstərilən dövlət qayğısından danışaraq qeyd edib ki, muxtar respublikada uşaqların təhsili ilə yanaşı, asudə vaxtlarının səmərəli təşkili, onların istedad və bacarıqlarının üzə çıxarılması üçün də zəruri tədbirlər görülür, məktəbdənkənar müəssisələrdə müasir tədris şəraiti qurulur və müxtəlif innovativ dərnəklər yaradılır.

Bildirilib ki, məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyətində əsas amillərdən biri də innovativ dərnəklər üzrə kadr hazırlığıdır. Bu baxımdan Təhsil Nazirliyi tərəfindən qısa müddət ərzində dərnək rəhbərlərinə robotexnika, mental aritmetika, qum sənəti, ebru sənəti, xalçaçılıq, dulusçuluq, ağac üzərində oyma, metal üzərində bədii döymə, rəqs, gimnastika dərnəkləri üzrə kurslar təşkil edilib. Rəsm və digər yaradıcı dərnəklər üzrə ustad dərslər keçilmiş, yeni innovativ dərnəklər üzrə muxtar respublikada ilk dəfə olaraq sərgi-müsabiqələr təşkil olunmuşdur.

Təhsil naziri vurğulayıb ki, muxtar respublikanın şəhər və rayonlarında məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti gücləndirilməli, dərnəklər şagirdlərin müasir texnologiyaların mənimsənilməsinə, yeni bilik və bacarıqlara yiyələnməsinə, vətənpərvərlik ruhunda tərbiyə olunmasına xidmət etməlidir.

Nazir şagirdlərin məktəbdənkənar fəaliyyətə cəlbinin, təlim-tərbiyə prosesinin təşkilinin və nizam-intizam qaydalarına riayət edilməsinin vacibliyini diqqətə çatdıraraq qeyd edib ki, məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti diqqətdə saxlanılmalı, yeni yaradılan innovativ dərnəklərin tədrisinə nəzarət artırılmalı, bu dərnəklərə cəlb olunan yaradıcı və istedadlı şagirdlərin hərtərəfli hazırlanmasına, xüsusi istedada malik şagirdlərə düzgün istiqamət verilməsinə yardım göstərilməlidir. Yeni profilli dərnəklərin tədris vəsaitləri və proqram materialları hazırlanmalı, dərnək üzvlərinin əl işləri və bacarıqlarını nümayiş etdirən sərgi-müsabiqələr keçirilməli, Robotexnika-STEAM kabinələrinin imkanlarından yararlanaraq hər il keçiriləcək "STEAM təhsil festivalı"na ciddi hazırlıq işləri görülməlidir.

Yığıncaqda Şərur, Ordubad və Culfa Rayon Təhsil şöbələrinin müdirləri innovativ dərnəklərin fəaliyyəti ilə bağlı məlumat veriblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Muxtar respublikada iqtisadi və sosial sahələrdə qazanılmış uğurlar 2021-ci ilin yanvar-sentyabr aylarında da qorunub saxlanılmış, çoxşaxəli iqtisadiyyatın formalaşdırılması və sosial sahənin inkişafı üzrə mühüm tədbirlər həyata keçirilmişdir. Cari ilin ötən dövrü ərzində digər sahələr kimi, nəqliyyat sektorunun da inkişafı istiqamətində mühüm işlər görülmüş, artan əhali tələbatına uyğun olaraq muxtar respublikada müasir nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.*

## Nəqliyyat sektorunun inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir





2021-ci ilin yanvar-sentyabr aylarında Culfa-Ordubad magistral avtomobil yolunun, Naxçıvan şəhərində avtomobil yolunun, Şərur şəhərinə giriş və daxili avtomobil yollarının, Babək rayonunun Araz, Ordubad rayonunun Yuxarı Əndəmic-Nüsnüs, Ordubad şəhər-Aşağı Əndəmic və Şərur rayonunun Şəhriyar kənd avtomobil yollarının, Şərur şəhərində yeraltı piyada keçidinin yenidən qurulması başa çatdırılmışdır.

Naxçıvan şəhərində iki avtomobil yolunun, Çərçiboğan, Dərvişlər, Xanlıqlar-Aşağı Daşarx-Yuxarı Daşarx, Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi, Maxta-Dəmirçi, Babək rayonunda Göynük, Ordubad rayonunda Vənənd-Pəzməri kənd avtomobil yollarının, Culfa şəhərində daxili avtomobil yolunun yenidən qurulması davam etdirilir.

Ordubad rayonunun Nüsnüs kəndində bir körpünün tikintisi, bir körpünün təmiri başa çatdırılmışdır. Naxçıvan şəhərində 400 yerlik avtomobil parkının, Şərur şəhərində avtovağzal binasının tikintisi davam etdirilir.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan stansiyasında rabitə qovşağının anbarının əsaslı təmiri başa çatdırılmış, polis şöbəsi üçün inzibati binanın tikintisi, nəzarət-ölçü cihazları sexinin əsaslı təmiri, Şərur rayonunda Elektrik Təmas Şəbəkəsi binasının, Dövriyyə Deposu binasının və təmir sexinin yenidən qurulması davam etdirilir.

Culfa rayonunda İstismar Vaqon Deposunun təmir sexinin tikintisi, inzibati binasının və Babək rayonunda Təhlükəsizlik Komandası binasının yenidən qurulması davam etdirilir.

2021-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada nəqliyyat sektorunda 12 milyon 354 min ton yük, 79 milyon 323 min 900 sərnişin daşınmışdır. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 0,7 faiz, sərnişin daşınması 2,3 faiz artmışdır.

**Xəbərlər şöbəsi**

## Görülmüş işlər Naxçıvan Beynəlxalq Hava Limanının payız-qış mövsümündə fasiləsiz fəaliyyətini təmin edəcəkdir

*Naxçıvan Beynəlxalq Hava Limanında 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqlarla bağlı ayrı-ayrı xidmət sahələrində qrafik üzrə nəzərdə tutulan bütün işlər başa çatdırılıb. Belə ki, qış mövsümündə hava gəmilərinin təhlükəsiz enib-qalxmasını təmin etmək məqsədilə xüsusi avtonəqliyyat vasitələri tam saz vəziyyətə gətirilib, texniki heyətlə məşğələlər keçirilib və uçuş-enmə zolağı, dönmə yollarının, perron ərazisinin qardan təmizlənmə proseduru işlənib hazırlanıb.*

Hava limanının aerodrom təminatı xidmətinin rəisi Həmzə Həmzəli bildirib ki, 1 "Volvo", 1 "Man", 2 "Mercedes" markalı qartəmizləyən, 1 "Supra" markalı qaratan və 1 "Damman" markalı buz əleyhinə mayesəpən avtonəqliyyat vasitələri imkan verir ki, istənilən qarlı hava şəraitində uçuş-enmə zolağı, dönmə yolları və perron ərazisini qardan və buzlaşmadan təmizləyək. Tam saz vəziyyətə gətirilmiş "ISUZU" və "Qlobal" markalı maşınlar isə hava gəmilərinin buzlaşmasına qarşı emalı üçün nəzərdə tutulub. Bütün bunlar isə Naxçıvan Beynəlxalq Hava Limanının soyuq qış mövsümündə də fasiləsiz fəaliyyət göstərməsinə imkan verir.



Xatırladaq ki, avqustun 28-də Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Beynəlxalq Hava Limanına da müvafiq tapşırıqlar verilibdir.

Onu da qeyd edək ki, hava limanında sakinlərin və muxtar respublikaya gələn qonaqların rahatlığı üçün taksi xidməti də müasir tələblər səviyyəsində qurulub. Naxçıvan Beynəlxalq Hava Limanının tabeliyində yeni yaradılan "Aeroport Taksi" Məhdud Məsuliyyətli Cəmiyyəti bu istiqamətdə göstərilən xidmətin səviyyəsini daha da yüksəldib. Bu taksi xidməti 3 "Naz Lifan", 2 "Fiat Doblo" markalı avtomobil olmaqla, ümumilikdə, 5 ədəd taksi ilə təmin edilib. Xüsusi geyim forması və loqosu ilə sərnişinlərə xidmət edəcək taksilər onların rahatlığı və tez mənzilbaşına çatması üçün hər cür şəraitlə təmin olunub. Gələcəkdə taksi xidmətinin genişləndirilməsi nəzərdə tutulur.

**✍ Səbuhi HƏSƏNOV**

## Muzey ziyarətləri davam edir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamına uyğun olaraq muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin olunub. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə və təbliğinə şərait yaradır.

Oktyabrın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Naxçıvan şəhərində yerləşən Dövlət Bayraq Muzeyində olublar.

Ekskursiya çərçivəsində qonaqlara bildirilib ki, Dövlət Bayrağı Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən yaradılıb, 2014-cü il noyabrın 17-də muzeyin açılışı olub.



Məlumat verilib ki, dövlət bayrağı müstəqilliyi təcəssüm etdirir. Ona görə də bayrağa münasibət Azərbaycanda tarixboyu özünü qabarıq şəkildə göstərib, xalqın milli mövcudluq simvolu sayılıb. Tariximizin ən dəyərli eksponatları sırasında mühüm yer tutan dövlət rəmzləri və bayraqlar Azərbaycanın qədim dövlətlərinin, o cümlədən Naxçıvan xanlığının və muxtar respublikanın tarixini öyrənməyə geniş imkanlar yaradır. Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi də bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Qeyd olunub ki, Dövlət Bayrağı Muzeyi Naxçıvan şəhərinin ən hündür ərazisində yerləşir. Bayraq dirəyinin ətrafında yaradılmış muzey səkkizguşəlidir. Meydanda dalğalanan dövlət bayrağının uzunluğu 20, eni isə 10 metrdir. Bayraq dirəyinin hündürlüyü isə 57 metrdir. Buradakı muzeyin fondunda 166 eksponat mövcuddur. Bunlardan 134-ü ekspozisiya zalında nümayiş etdirilir. Muzeydə olan Naxçıvan xanlığının dövlət və döyüş bayraqları ən dəyərli eksponatlar sırasındadır.

Bununla yanaşı, ekspozisiya zalında sərgilənən eksponatlar arasında üçrəngli dövlət bayrağımız, 1922-1981-ci illər arasında SSRİ dövründə qəbul edilmiş Naxçıvan bayraqları, Naxçıvan xanlığının döyüş və dövlət bayraqları, Kəngərli süvari dəstəsinin döyüş bayrağı, Eldənizlər dövlətinin bayrağının, Naxçıvan bəy drujinasının döyüş və fəxri bayraqlarının, Naxçıvan qəzasının gerbinin, Naxçıvan xanlarının gerbinin fotosurətləri, 1990-cı il 17 noyabr tarixində Naxçıvanda üçrəngli dövlət bayrağının qəbul olunması haqqında qərarın və qəbul olunan üçrəngli dövlət bayrağının fotosurətləri və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həmin qərarı oxuyarkən çəkilmiş fotoşəkli və digər nadir tarixi eksponatlarla tanış olublar.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının kollektivi “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin və ixtisaslaşdırılmış məhkəmələrin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyində, Daxili İşlər Nazirliyinin kollektivi “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində, Dövlət Təhlükəsizliyi Xidmətinin kollektivi Cəmşid Naxçıvanski Muzeyində, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi Xatirə Muzeyində, Ədliyyə Nazirliyinin kollektivi Bəhruz Kəngərli Muzeyində, Fövqəladə Hallar Nazirliyinin kollektivi Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində, Dövlət Gömrük Komitəsinin kollektivi Cəlil Məmmədquluzadənin ev-muzeyində, İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) aparatının kollektivi Naxçıvan Dövlət Rəsm Qalereyasında, Maliyyə Nazirliyinin kollektivi “Qarabağlar” Türbə Kompleksində, İqtisadiyyat Nazirliyinin kollektivi Duz Muzeyində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivi Milli Dəyərlər Muzeyində, Kənd Təsərrüfatı Nazirliyinin kollektivi Nəbatat bağında, Rabitə və Yeni Texnologiyalar Nazirliyinin kollektivi “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Səhiyyə Nazirliyinin kollektivi Biznes Mərkəzində, Təhsil Nazirliyinin kollektivi Heydər Əliyev Muzeyində, Mədəniyyət Nazirliyinin kollektivi Naxçıvan Dövlət Tarix Muzeyində, Gənclər və İdman Nazirliyinin kollektivi Ədəbiyyat Muzeyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivi Dövlət Bayrağı Muzeyində olublar.

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Dağların başında ərənlər yaşar

***Soyuq payız günlərinin birində yolumuz eyni vaxtda dörd fəsli yaşaya bilən Batabat yaylağınadır. Lakin budəfəki səfərimizin məqsədi əsrarəngiz təbiəti, füsunkar gözəlliyi ilə gözəxşayan bu yurdun turizm potensialı haqqında yazı hazırlamaq deyil, Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən hərbi hissələrindən birində, başıqarlı Batabat dağlarında Vətənin keşiyində dayanan igid əsgərlərimizlə həmsöhbət olmaq, onları qələbəmizin yaxınlaşan ilk ildönümü münasibətilə təbrik etməkdir.***





Qeyd edim ki, bu dəfə böyük qürur və fəxarət hissi ilə qalib xalqın nümayəndələri kimi qalib ordunun döyüşlərdə fərqlənən bir neçə hərbi qulluqçusu ilə gedirik bu yolu. Yolboyu döyüş təəssüratlarından danışan igidlər şəhid qardaşlarını yada salıb kövrəlsələr də, onların gözlərindəki fəxarət, qürur hissini də duymaq çətin deyil. “Şücaətə görə”, “Döyüşdə fərqlənməyə görə”, “Şuşanın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif olunmuş ***Dağıstan Hüseynov*** deyir ki, Azərbaycan xalqı öz Prezidentinin rəhbərliyi və rəşadətli Ordunun iştirakı ilə şanlı tarix yazdı. 44 günlük Vətən savaşının hər saatı, hər dəqiqəsi bir dastana döndü. Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev münaqişənin sülh yolu ilə həllindən başqa yol yoxdur deyənlərin cavabını verdi: Var başqa yol, – dedi və dediyini etdi. Uzun illərdir, status-kvonun qəbuledilməzliyini deyənlərə, amma heç bir iş görməyib işğalçının başına sığal çəkənlərə göstərdi ki, məsələni necə həll etmək olar. Ali Baş Komandanın əmri ilə döyüşə atılan müzəffər Ordumuz 30 ilə yaxın davam edən status-kvonu 44 gün ərzində dəyişdi. İndi nə status-kvo var, nə də təmas xətti. Bunu xalqımızın iradəsi ilə Ali Baş Komandan, Azərbaycan Ordusu döyüş meydanında etdi.

Vətən müharibəsinin iştirakçısı, cəsur qəhrəman onu da əlavə etdi ki, əks-hücum əməliyyatlarının başladığı ilk gündən “atəşi dayandırın, danışıqlara başlayın” deyən supergüclərin aramsız təzyiqlərinə mərdmərdanə sinə gərən Prezidentimiz nəyi necə və nə vaxt etmək lazım gəldiyini yaxşı bildiyini siyasi uzaqgörənliklə bir daha sübut etdi. Bu, Qarabağ uğrunda döyüşlərin gedişində bir daha təsdiqləndi. Ali Baş Komandan həm savaş meydanında, həm də diplomatiya və siyasi platformalarda düşmənə layiqli cavab verdi. Bir vaxt “Qarabağ Ermənistandır” deyən, Şuşada ədəbazcasına rəqs edərək acıq verən paşinyanlara öz yerini göstərdi. Son hadisələr düşmənə də, bütün dünyaya da bəyan etdi ki, şərəfli və namuslu bir xalqın heysiyyəti ilə oynamaq, onu təhqir etmək olmaz. Azərbaycan xalqı, ordumuz bunu paşinyanlara bağışlaya bilməzdi və bağışlamadı. Azərbaycan xalqının igid oğulları doğma torpağı uğrunda ölüm-dirim savaşından qalib kimi çıxdı. Bu taleyüklü məqamda 10 milyon qəlb bir ürək kimi vurdu. Düzdür, şəhidlər verdik, qazilərimiz var. Lakin şəhidlərimizin ruhu bu gün şaddır.

Söhbətimizi sürücünün səsi ilə yarımçıq qoyuruq. Artıq ünvana çatmışıq.

Qeyd edim ki, gəlişimizin bir məqsədi də “Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq Naxçıvan Qarnizonu Qoşunlarında 8 Noyabr – Zəfər Gününün təntənəli şəkildə qeyd edilməsi idi. Əlahiddə Ümumqoşun Ordunun komandanlığı tərəfindən hazırlanan tədbirlər planına uyğun olaraq bütün birləşmə, hissə və bölmələrdə, Təlim-Tədris mərkəzlərində, Heydər Əliyev adına Hərbi Liseydə, Naxçıvan Qarnizonunun tam orta məktəbində və uşaq bağçalarında silsilə tədbirlər keçirilir.

Budur, ön xətdə yerləşən hərbi hissələrin birində “Zəfər yolumuz” adlı tərbirdə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasının ictimaiyyət, mədəniyyət, mətbuat nümayəndələri və müharibə iştirakçıları əsgərlərimizin başına yığılıblar. Lakin tədbirə başlamazdan əvvəl əsgərlərin sosial-məişət şəraiti və döyüş növbətçiliyi ilə yaxından tanış olmaq istəyirik. Dağların qoynunda xidmət aparan əsgərlərimiz üçün yaradılan şərait onu deməyə əsas verir ki, bu gün ordumuzun istər maddi-texniki, istərsə də sosial-məişət şəraiti yüksək səviyyədədir.





Burada gördüklərimizdən sonra ön xətdə düşmənlə üz-üzə dayanan igid əsgərlərimizlə elə səngərdə görüşüb, həmsöhbət oluruq. Əsgər ***Kənan Bilalov*** əslən Qəbələ rayonundandır. Atasına, anasına, dostlarına, bütün yaxınlarına salam göndərməklə söhbətə başlayır: – İnsanın bu dünyada yaşaması üçün Vətən, yurd sevgisi başlıca amildir. Mən də valideynlərimi, doğma yurdumu, xalqımı çox sevirəm. Ancaq Vətənimə olan sevgimi heç bir hisslə müqayisə edə bilmirəm. Mən bir azərbaycanlı, xalqının, millətinin xoş güzəranını istəyən bir Vətən övladı, bu yolda canından belə keçməyə hazır olan bir Vətən əsgəri kimi demək istəyirəm ki, mənim üçün Vətən sevgisi lap öndə dayanır.

Vətən, nəyin bahasına olursa-olsun, qorunmalıdır. Biz qorumalıyıq onu. Vətəni müdafiə etmək, onun uğrunda qan tökmək, canımızı fəda etmək vətəndaşlıq və əsgəri borcumuzdur.

Kənan deyir ki, Naxçıvanın təbiəti onu valeh edib. Burada heç bir sıxıntı çəkmir. Zabitləri və əsgər yoldaşları ilə doğma bir ailə kimi Vətənin keşiyində dayanmaqdan qürur duyur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəfələrlə səngərlərdə bizim görüşümüzə gəlməsi, şəraitimizlə maraqlanması hər bir əsgərə ata qayğısı göstərməsi bizi daha da yaxşı xidmət etməyə sövq edir.

Deyir ki, Qarabağa qayıdacağımıza əmin idik. Dayandığımız mövqedən döyüşlər gedən əraziyə qədər xeyli məsafə olsa da, ruhumuz o döyüşlərin iştirakçılarının sırasında idi. Biz də orada olmaq istərdik, Vətən savaşı zamanı mövqelərdəki döyüşlərdən, ölkəmizin paytaxtında və digər rayonlarımızda keçirilən həmrəylik yürüşlərindən xəbərdar idik. Azərbaycan əsgəri olaraq sinəsində üçrəngli Azərbaycan bayrağıyla son mənzilə yola salınan şəhidlərimizin ruhu qarşısında baş əyir və demək istəyirəm ki, hər birinin qisası alınıb. Torpaqlarımızın işğaldan azad edilməsi onların ruhuna gözaydınlığıdır.

Söylənilən bu fikirlərin arxasında Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş əzmi, Qələbə ruhu dayanır. Elə bu Qələbə ruhu da böyük Zəfərimizi təmin edən ən böyük amillərdən biri oldu. Vüqarlı dağlarımızın ən yüksək zirvəsində Vətənin keşiyində elə dağlar kimi dayanan vüqarlı əsgərlərimizlə görüşdükdən sonra olduğumuz hərbi hissədə Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının hərbçilərimiz üçün hazırladığı konsert proqramında iştirak etdik.

Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə Vətən müharibəsi iştirakçıları və qazi Təbriz Zeynalov çıxış edərək keçdikləri şərəfli yoldan danışdılar. Əsgərlərə yemək süfrəsi arxasında təşkil olunan tədbir vətənpərvərlik mövzusunda mahnılar, əsgərlərimizin rəqsləri ilə davam etdi.





Ayrılarkən əsgərlərimizin görünüşündəki əzəmət, vüqarlı baxışları bizi bir daha əmin etdi ki, ordumuz basılmazdır. Çünki onun sıralarında bu gün görüşdüyümüz igid oğullar var!

✍ **Telli MƏMMƏDOVA**

## Təlim-metodik toplantı keçirilib

***“Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşdırma planı”na əsasən tabor, divizion komandirləri və müavinləri ilə təlim-metodik toplantı keçirilib.***

Zabitlərin bölmələri idarəetmə vərdişlərinin yüksəldilməsi, əməliyyat və qərargah hazırlığı üzrə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən toplantıda praktik və göstərici məşğələlərə üstünlük verilib.

Səhra şəraitində təşkil edilmiş təlim yerlərində “Artilleriya divizionunun atış və atəşin idarə olunması”, “Kiçikölçülü hava hədəflərinə qarşı mübarizə”, “Mövqelərin mühəndis cəhətdən hazırlanması” mövzularında məşğələlər keçirilib, atıcı silahlardan normativlərin yerinə yetirilməsi nümayiş olunub. Məşğələ zamanı minaatan batereyasının atışa hazırlanması və praktik atış tapşırıqlarının yerinə yetirilməsi məşq etdirilib.

Toplantıda təmir emalatxanalarının və qida məntəqəsinin səhra şəraitində açılması, ehtiyat döyüş sursatının döyüş maşınlarında və nəqliyyat vasitələrində saxlanılması praktik olaraq göstərilib.

Toplantının yekununda qarşıya qoyulmuş məqsədlərə nail olunduğu vurğulanaraq bölmələrin döyüş hazırlığının yüksəldilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

**Kənan CƏLİLOV**

## Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2 noyabr-2 dekabr 2021-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət İmtahan Mərkəzinə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər. Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar Dövlət İmtahan Mərkəzinin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Təhsil müəssisəsi | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|---|
| **Naxçıvan şəhəri üzrə:** | | | | | |
| 6910314 | 3 nömrəli tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | * |
| 6910312 | 3 nömrəli tam orta məktəb | Tarix | 1 | 12 | * |
| 6911613 | 16 nömrəli tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6911620 | 16 nömrəli tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6911621 | 16 nömrəli tam orta məktəb | Rus dili | 1 | 12 | |
| **Cəmi:** | | **5 yer** | | | |
| **Şərur rayonu üzrə:** | | | | | |
| 6900421 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Rus dili | 1 | 12 | |
| 6920214 | Şərur şəhər 2 nömrəli tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6920918 | Axura kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6920910 | Axura kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6920908 | Axura kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6920912 | Axura kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6920313 | Alışar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6920309 | Alışar kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925713 | Aşağı Yaycı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6921109 | Çəmənli kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6921210 | Çərçiboğan kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6921418 | Danyeri kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6921420 | Danyeri kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6921408 | Danyeri kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6921609 | Dərəkənd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6921811 | Diyadin kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6921813 | Diyadin kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6922211 | Ərəbyengicə kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6922113 | Ələkli kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6922309 | Gümüşlü kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6922407 | Havuş kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 12 | ** |
| 6922522 | Həmzəli kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6922511 | Həmzəli kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6922509 | Həmzəli kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6922510 | Həmzəli kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6924922 | Xanlıqlar kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6925022 | Xələc kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6925013 | Xələc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925019 | Xələc kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6925008 | Xələc kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6922707 | Kərimbəyli kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 12 | |
| 6922709 | Kərimbəyli kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6922720 | Kərimbəyli kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6922909 | Kürçülü kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923707 | Qarabürc kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 12 | |
| 6923709 | Qarabürc kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923719 | Qarabürc kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6923710 | Qarabürc kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6924013 | Qorçulu kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924009 | Qorçulu kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6924010 | Qorçulu kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6923213 | Maxta kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923221 | Maxta kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6923309 | Muğancıq-Mehrab kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923612 | Püsyan kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6924111 | Sərxanlı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6924108 | Sərxanlı kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6924221 | Siyaqut kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6924518 | Tənənəm kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | ** |
| 6924710 | Tumaslı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6924822 | Vərməziyar kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6924807 | Vərməziyar kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 12 | |
| 6924813 | Vərməziyar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925221 | Yengicə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6925309 | Yeni Havuş kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925308 | Yeni Havuş kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | |
| **Cəmi:** | | **56 yer** | | | |
| **Babək rayonu üzrə:** | | | | | |
| 6932313 | Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6932320 | Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6931022 | Göynük kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6931222 | Güznüt kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6931213 | Güznüt kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931822 | Naxışnərgiz kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6932022 | Nəhəcir kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6932521 | Qahab kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6932720 | Sirab kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6933022 | Uzunoba kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6933421 | Yarımca kənd tam orta məktəbi | Rus dili | 1 | 14 | |
| 6933520 | Yuxarı Buzqov kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| **Cəmi:** | | **12 yer** | | | |
| **Ordubad rayonu üzrə:** | | | | | |
| 6940409 | Aşağı Əylis kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6940408 | Aşağı Əylis kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | |
| 6941007 | Bist kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 15 | ** |
| 6941013 | Bist kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6941109 | Çənnəb kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6941119 | Çənnəb kənd tam orta məktəbi | İnformatika | 1 | 13 | ** |
| 6941161 | Çənnəb kənd tam orta məktəbi | Kimya-biologiya | 1 | 20 | ** |
| 6941108 | Çənnəb kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 20 | ** |
| 6941220 | Dəstə kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6941618 | Düylün kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6941610 | Düylün kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941910 | Gənzə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6943407 | Xanağa kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 18 | |
| 6943413 | Xanağa kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6943519 | Xurs kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | ** |
| 6943520 | Xurs kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6942113 | Kələki kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6942212 | Kotam kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6942361 | Nəsirvaz kənd tam orta məktəbi | Kimya-biologiya | 1 | 15 | ** |
| 6942413 | Nürgüt kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6942418 | Nürgüt kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 16 | ** |
| 6942509 | Nüsnüs kənd tam orta məktəbi | Fizika | 1 | 13 | |
| 6942510 | Nüsnüs kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6942610 | Parağa kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6942722 | Pəzməri kənd ümumi orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6942718 | Pəzməri kənd ümumi orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 16 | ** |
| 6942910 | Tivi kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6942912 | Tivi kənd tam orta məktəbi | Tarix | 1 | 18 | ** |
| 6943007 | Unus kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 18 | ** |
| 6943020 | Unus kənd tam orta məktəbi | İngilis dili | 1 | 20 | ** |
| 6943010 | Unus kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6943108 | Üstüpü kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | ** |
| 6943220 | Vələver kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6943210 | Vələver kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6943610 | Yuxarı Əylis kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| **Cəmi:** | | **35 yer** | | | |
| **Culfa rayonu üzrə:** | | | | | |
| 6950509 | Boyəhməd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6951010 | Ərəfsə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6951213 | Gal kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6951218 | Gal kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 13 | ** |
| 6951212 | Gal kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6951611 | Ləkətağ kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6952021 | Saltaq kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| 6952221 | Teyvaz kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| 6952510 | Yaycı kənd 1 nömrəli tam orta məktəb | Kimya | 1 | 12 | ** |
| 6952621 | Yaycı kənd 2 nömrəli tam orta məktəb | Rus dili | 1 | 12 | |
| **Cəmi:** | | **10 yer** | | | |
| **Kəngərli rayonu üzrə:** | | | | | |
| 6970114 | Qıvraq qəsəbə tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6970222 | Böyükdüz kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6971013 | Xok kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6971018 | Xok kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6970808 | Təzəkənd kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 20 | |
| **Cəmi:** | | **5 yer** | | | |
| **Şahbuz rayonu üzrə:** | | | | | |
| 6960422 | Ağbulaq kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6960413 | Ağbulaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960419 | Ağbulaq kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6960613 | Badamlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961011 | Gömür kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961010 | Gömür kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961113 | Güney Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961110 | Güney Qışlaq kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961310 | Kolanı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961410 | Kükü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961722 | Nursu kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6961711 | Nursu kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961813 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962013 | Şada kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962009 | Şada kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6962010 | Şada kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6962113 | Şahbuzkənd kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962313 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962320 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| **Cəmi:** | | **19 yer** | | | |
| **Sədərək rayonu üzrə:** | | | | | |
| 6981514 | Dəmirçi kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6981518 | Dəmirçi kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6981519 | Dəmirçi kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6981521 | Dəmirçi kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6980211 | Qaraağac kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6980209 | Qaraağac kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6980218 | Qaraağac kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6980220 | Qaraağac kənd tam orta məktəbi | İngilis dili | 1 | 20 | |
| 6980322 | Sədərək kənd 1 nömrəli tam orta məktəb | Alman dili | 1 | 14 | |
| 6980318 | Sədərək kənd 1 nömrəli tam orta məktəb | İbtidai sinif müəllimliyi | 2 | 28 | |
| 6980320 | Sədərək kənd 1 nömrəli tam orta məktəb | İngilis dili | 1 | 18 | |
| 6980308 | Sədərək kənd 1 nömrəli tam orta məktəb | Riyaziyyat | 1 | 20 | |
| 6980413 | Sədərək kənd 2 nömrəli tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6980409 | Sədərək kənd 2 nömrəli tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6980418 | Sədərək kənd 2 nömrəli tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6980420 | Sədərək kənd 2 nömrəli tam orta məktəb | İngilis dili | 1 | 18 | |
| **Cəmi:** | | **17 yer** | | | |
| **YEKUN:** | | **159 yer** | | | |

(*) Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbdə işə qəbul olunmaq üçün yalnız rus dilini mükəmməl bilən şəxslər müraciət edə bilərlər.

(**) Bu müəssisələr Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli 150 nömrəli Qərarına əsasən stimullaşdırıcı tədbirlər müəyyən edilən təhsil müəssisələridir.

## Şəhid ailələrinin sağlamlığı diqqət mərkəzində saxlanılır



***Oktyabrın 31-də “Naxçıvan Muxtar Respublika Xəstəxanası” publik hüquqi şəxsdə Zəfər Günü ərəfəsində şəhid ailələrinin müayinəsi və müalicəsi təşkil olunub. Əvvəlcə şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib, sonra növbəti humanitar aksiyaya start verilib. Biz də tədbirin təşkilatçıları və şəhid ailələri ilə həmsöhbət olduq.***

Naxçıvan Şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri ***İsmayıl Gülməmmədov*** bildirdi ki, ötən ilin sentyabr ayında başlanan və tarixə qızıl hərflərlə yazılmış şanlı Vətən müharibəsində güclü, qətiyyətli Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi, 30 illik həsrətə 44 gündə son qoyuldu. Bu Zəfərin qazanılmasında digər bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstərdilər, şəhidlər verdilər. Vurğulanıb ki, muxtar respublikamızda torpaqlarımızın azad olunmasında qəhrəmanlıq göstərmiş və şəhid olmuş şəxslərin ailə üzvlərinə xüsusi diqqət və qayğı göstərilir. Onların mənzil və məişət şəraiti yaxşılaşdırılır, şəhid məzarları abadlaşdırılır. Bu tədbirlərin davamı olaraq keçirilən aksiyada onların sağlamlıqlarının qayğısına qalınır.

Həkim-stomatoloq ***Vüsal Əliyev*** qeyd etdi ki, xəstəxananın illik tədbirlər planına əsasən təmənnasız olaraq muxtar respublikamızın bütün şəhər və rayonlarında yaşayan qazi və şəhid ailələrinin müayinələrini həyata keçiririk. Bu gün də Naxçıvan şəhərində yaşayan şəhid ailələrinin səhhəti çoxsaylı həkim kollektivimiz tərəfindən yoxlanıldı, lazımi müayinələr aparıldı, müalicə təyin olundu. Bundan sonra da bir həkim, bir vətəndaş kimi onların xidmətində durmağa hazırıq.

Kapitan Aşur Cəmiyevin atası ***Bəybala Cəmiyev***lə söhbətimiz zamanı o dedi: – Oğlum Aşur Cəmiyev vəzifə borcunu layiqincə yerinə yetirdiyi üçün ölümündən sonra orden və medallarla mükafatlandırılıb. Bu gün bizə xüsusi diqqət və qayğı göstərilir. Hər bir işimiz yerindəcə həllini tapır. Bu gün mən də bir neçə tibbi müayinədən keçdim, müalicə yazıldı. Dövlətimizdən razıyıq.

Baş leytenant Sahil Məmmədovun həyat yoldaşı ***Turanə Məmmədova*** bildirdi ki, Naxçıvan şəhərinin Qaraçuq kəndindən gəlib. Onun yoldaşı Tovuz döyüşlərində və II Qarabağ müharibəsində iştirak edib. Murovdağın alınmasında şücaət göstərib, Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidin anası Sahilə Məmmədova, bacısı Rasimə Məmmədova da müayinə üçün gəlmişdilər. Hər biri onlara göstərilən qayğıya görə minnətdarlıq etdi.

Şəhid əsgər Pərviz Məmmədzadənin anası ***Pərvanə Cəfərova*** ilə də həmsöhbət olduq. 19 yaşında şəhidlik zirvəsinə yüksələn oğlu haqqında danışmaq çətin gəlir anaya. O deyir: – Oğlum yaşının az olmasına baxmayaraq, öz cəsarəti və qəhrəmanlığı ilə yoldaşlarından seçilib. Xocavənd istiqamətində aparılan şiddətli döyüşlərdə son damla qanınadək vuruşaraq ən yüksək mərtəbəyə, şəhidlik zirvəsinə yüksəlib. Bu gün şəhid ailəsi kimi hərtərəfli qayğı ilə əhatə olunmuşuq. Məişət şəraitimizin yaxşılaşdırılması, sağlamlığımız dövlətin diqqətində saxlanılır. Təmənnasız olaraq bir sıra müayinələrdən keçdim. Hər bir həkimə bizə göstərilən diqqət üçün çox sağ olun deyirəm.

Leytenant Qabil Orucəliyevin anası ***Nuriyyə Orucəliyeva*** ilə söhbətimiz zamanı bildirdi ki, Qabil 2016-cı ildə – şanlı Aprel döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Ölümündən sonra ölkə Prezidenti tərəfindən “Hərbi xidmətdə fərqlənməyə görə” III dərəcəli medalla təltif olunub. Dövlətin şəhid ailələrinə qayğısından razılıq edən Nuriyyə xanım bunları söylədi: – 2016-cı il mayın 6-da ailəmizə yeni mənzil təqdim olunub. Bu gün də gəlinim Tükəzban Orucəliyeva ilə birgə ayağımda və döş qəfəsimdə yaranan ağrıdan əziyyət çəkdiyim üçün müayinə olundum. Göstərilən bu qayğıya görə minnətdaram.

Aksiya ərəfəsində müayinə və müalicə proseslərində iştirak edən oftalmoloq-həkim ***Kəmalə Əliyeva*** ilə həmsöhbət olarkən artıq 10 nəfər müayinədən keçmişdi. Müsahibim bildirdi ki, şəhidlərimizin ailələrinə dövlət səviyyəsində diqqət və qayğı göstərilir. Hər gün bu müayinələri həyata keçiririk, onlara xüsusi diqqət var. Bu hər bir həkimin vəzifə və vətəndaşlıq borcudur.

Nevropatoloq ***Anar Səfərov***la söhbət zaman qeyd etdi ki, müharibədən sonra bizə bir çox şəhid ailələri və qazilərimiz müraciət edirlər. Həyəcan, əsəbilik, baş ağrıları, sıxıntı, yuxu pozuqluğu, əhval-ruhiyyə düşkünlüyü, psixi-nevroloji əlamətlərlə müraciət edənlər çoxdur. Bu gün burada iştirak edən şəhid yaxınlarının bir neçəsi əvvəlcədən tanıdığım xəstələr, bir hissəsi də yeni müraciət edənlərdir. Onların bəzilərinə konservativ müalicələr təyin etdik, digərlərini də müxtəlif müayinə prosedurları üçün başqa həkimlərə yönləndirdik, nəticələr qısa zamanda təqdim ediləcək.

Qeyd edək ki, aksiya zamanı İkinci Qarabağ müharibəsi, eləcə də 2016-cı ilin Aprel döyüşləri şəhidlərinin ailələri də daxil olmaqla, ümumilikdə, 19 şəhid ailəsi üçün 80 həkim tərəfindən müxtəlif müayinə və müalicə prosedurları aparılıb.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikası üzrə 1 noyabr 2021-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 870 | 760 | 110 |
| 2. | Babək rayonu | 3759 | 2460 | 1299 |
| 3. | Ordubad rayonu | 76 | 20 | 56 |
| 4. | Culfa rayonu | 819 | 650 | 169 |
| 5. | Kəngərli rayonu | 2626 | 1650 | 976 |
| 6. | Şahbuz rayonu | 14 | 12 | 2 |
| 7. | Sədərək rayonu | 850 | 160 | 690 |
| 8. | Naxçıvan şəhəri | 47 | 45 | 2 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **9061** | **5757** | **3304** |

## Xok kəndində güləş bölməsi fəaliyyətə başlayıb



Naxçıvan Muxtar Respublikasında gənc nəslin sağlamlığının qorunması, onların asudə vaxtlarının səmərəli təşkili, eyni zamanda idmana cəlb olunması yönündə mühüm addımlar atılır. Bu gün muxtar diyarımızda bütün sahələrdə olduğu kimi, idmana da diqqət və qayğı ilə yanaşılır. Muxtar respublikanın şəhər və rayonlarında, həmçinin kəndlərində yeni idman obyektləri, zalları tikilərək uşaq, yeniyetmə və gənclərin ixtiyarına verilir.

İdmana, idmançılara göstərilən dövlət qayğısının bariz nümunəsi kimi ötən gün Kəngərli rayonunun Xok kəndində güləş zalı istifadəyə verilib. Xok kənd tam orta məktəbinin idman zalında fəaliyyət göstərəcək güləş bölməsi bütün avadanlıqlarla təmin edilib.

Zalın açılış mərasimində çıxış edən Kəngərli Rayon Gənclər və İdman İdarəsinin rəisi Vüsal Hüseynzadə bildirib ki, Naxçıvanda uğurlu idman siyasəti nəticəsində daim beynəlxalq yarışlar, turnirlər təşkil edilir, idman infrastrukturu müasirləşdirilir, idmanın inkişafına davamlı qayğı göstərilir. Bunun nəticəsidir ki, idmançılarımız keçirilən bütün yarışlarda uğur qazanır, idman ənənələrini layiqincə davam etdirirlər. Yeni istifadəyə verilən güləş zalı bu gün diyarımızda idmana qayğının təcəssümüdür.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov çıxışında vurğulayıb ki, yaradılan müasir idman infrastrukturu muxtar respublikada beynəlxalq yarışların yüksək səviyyədə keçirilməsinə imkan verir. Mövcud infrastruktur, eyni zamanda uşaq, yeniyetmə və gənclərin sağlam, peşəkar idmançı kimi formalaşması baxımından böyük rol oynayır. Şəhər və rayonlarımızla yanaşı, muxtar respublikanın kəndlərində də idman obyektlərinin tikilməsi, mövcud obyektlərin yenidən qurulması, idman zallarının fəaliyyətə başlaması artıq ənənə halını alıb. Kəngərli rayonunun Xok kəndində yeni güləş zalının idmançıların ixtiyarına verilməsi burada idmana marağı daha da artıracaq, gələcəkdə onların uğur qazanmasına bilavasitə təsir göstərəcək.

Çıxış edənlər sonda yaradılan şəraitə görə muxtar respublika rəhbərinə idmançılar adından minnətdarlıqlarını bildiriblər.

Sonra idmançılara Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası tərəfindən idman geyim dəstləri və güləş tirkoları hədiyyə edilib.

## Birincilik başa çatıb



*“Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi altında keçirilən yeniyetmələr arasında cüdo üzrə Naxçıvan şəhər birinciliyinə yekun vurulub.*

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası ilə şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 60 idmançı mübarizə aparıb. Yarışda Naxçıvan şəhər idmançıları ilə yanaşı, Culfa və Şərur cüdoçuları da iştirak ediblər.

Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov yarış başlamazdan öncə birincilik barədə məlumat verib, idmançılara uğurlar arzulayıblar.

9 çəki dərəcəsində keçirilən birinciliyin yekun nəticəsinə əsasən Cəfər Rəsulzadə (30 kiloqram), Rəhim Qaybalıyev (34 kiloqram), Nihad Məmmədov (38 kiloqram), Vüqar Nuriyev (42 kiloqram), Atilla Rəhimli (46 kiloqram), Əli Seyidov (50 kiloqram), Heydər Zamanov (55 kiloqram), Aqil Hüseynov (60 kiloqram) və Tofiq Nəcəfov (60+ kiloqram) bütün rəqiblərinə qalib gələrək birinciliyin baş mükafatını qazanıblar.

Sonda qaliblər təşkilatçılar tərəfindən mükafatlandırılıb.

**✍ Ceyhun MƏMMƏDOV**

## Saxlanılan mallar müvafiq qurumlara təhvil verilib



***Müzəffər Ordumuzun qüdrətini artıran mühüm amillərdən biri də xalq-ordu birliyidir. Naxçıvan Muxtar Respublikasında bu məsələ daim diqqətdə saxlanılır, dövlət orqanları da xalq-ordu birliyinin möhkəmlənməsinə töhfə verirlər. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən 34 adda müxtəlif malların müvafiq qurumlara təhvil verilməsi həyata keçirilib.***

Bu məqsədlə 330 kiloqram şampun, 355 közərmə lampası, 1600 ədəd milçək dərmanı, 2 pnevmatik qaz tapançası, 8 pnevmatik qaz tapançası balonu, 1800 pnevmatik qaz tapançası qırması, 1 ədəd əl qumbarası hissəsi, 49 müxtəlif çaplı silah mərmiləri Naxçıvan Əlahiddə Ümumqoşun Ordusuna verilib. Müsadirə olunan mallardan 840 gips lövhə, 165 kiloqram şampun, 1000 ədəd milçək dərmanı, 2 qazla işləyən suqızdırıcı isə “Naxçıvan” Əlahiddə



Sərhəd Diviziyasına təhvil verilib.

Heydər Əliyev adına Hərbi Liseyə təhvil verilən mallar 450 kiloqram şokoladlı biskvit, 63 ədəd mineral su, Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasına təhvil verilən mallar 55 kiloqram şampun, 500 ədəd milçək dərmanı olub.

Saxlanılan mallardan 361 ədəd müxtəlif kalibrli ov silahı mərmisi, 1 tapança, 2 tapança darağı, 165 tapança mərmisi, 7 elektroşok, 3 dəmir qandal, 2 dəyənək Daxili İşlər Nazirliyinə, 4 əleyhqaz Fövqəladə Hallar Nazirliyinə, 192 əzələ üçün istiotlu yapışqan Naxçıvan Qarnizonu Mərkəzi Hospitalına, 2 ədəd Tir silahı, 3900 Tir silahı mərmisi Atıcılıq Federasiyasına, 30 közərmə lampası Naxçıvan Dövlət Musiqili Dram Teatrına, 38 ədəd balıq toru Naxçıvan Balıqçılıq Təsərrüfatına təhvil verilib.

Xalq-ordu birliyinin təzahürü olaraq “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən isə 2500 taraş köpüyü Naxçıvan Əlahiddə Ümumqoşun Ordusuna hədiyyə edilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***


***İtmişdir***

Naxçıvan şəhəri, 11-ci məhəllə 49-50 ünvanda yaşayan Əliyev Vahid Əli oğlunun adına olan 10453 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Qarxun kənd sakini Muradov İsa Abdulla oğlunun adına verilmiş JN-506A nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Məmmədov Bəxtiyar Bəqiyət oğlunun adına 2009-cu ildə Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş internatura vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini Ələsgərov Kamil Abdulla oğlunun adına olan JN-1555A nömrəli, 10304005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Telli Məmmədova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 912